## Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında əmtəə-pul dövriyyəsini sabitləşdirmək və nəğd pula olan tələbatı tam ödəmək məqsədilə və "Respublikada iqtisadi və ictimai-siyasi həyatı sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq **qərara alıram:**

1. 1992-ci il avqustun 15-dən Azərbaycan Respublikasının milli valyutası—manat dövriyyəyə buraxılsın.
2. Müəyyən edilsin ki, rublla yanaşı manat öz nominal dəyəri ilə Azərbaycan Respublikasının ərazisində bütün hesablaşmalarda bərabərhüquqlu tədiyyə vasitəsidir.
3. Bütün hesablaşmalarda 1 manat: 10 rubl nisbəti müəyyən edilsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Milli Bankı ilə birlikdə bu Fərmanın həyata keçirilməsini təmin edən müvafiq qərar qəbul etsin.
5. Azərbaycan Respublikasının Baş naziri R. Hüseynova və Azərbaycan Respublikasının Dövlət katibi P. Hüseynova tapşırılsın ki, 10 gün müddətinə Azərbaycan Respublikasının pul vahidlərinin paralel tətbiqi ilə əlaqədar bütün məsələlər barəsində Rusiya ilə, MDB-nin Banklararası Əlaqələndirmə Şurası ilə danışıq aparsınlar və nəticəsi barədə müvafiq saziş layihəsi təqdim etsinlər.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY.**

Bakı şəhəri, 15 iyul 1992-ci il.
№ 48.